

# «Nehrə Yağlarının Istehsalı» layihəsi üzrə daxili bazar araşdırması

# YEKUN HESABAT

KOB

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

S|S

SAGE SOLUTIONS

if quality matters

# Mündəricat


1.0. Giriş və əsas anlayışlar

2.0. Araşdırmanın metodologiyası

3.0. Nehrə yağı məhsulunun sənaye istehsalına yararlıqının qiymətləndirilməsi

4.0. Bazarın mövcud durumu

4.1. Bazar çeşid və qiymət təklifləri

4.2. İstehlakçıların münasibəti

5.0. Nehrə yağı istehsalı təşəbbüsünün SWOT təhlili

6.0. Biznes Modellər- Beynəlxalq Təcrübələr

7.0. Dövlət dəstəyi




# 1.0. Giriş və əsas anlayışlar

Təqdim olunan hesabat Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin sifarişi və maliyyə dəstəyi ilə Sage Solutions MMC konsaltinq şirkəti tərəfindən hazırlanmışdır. Nehrə yağlarının istehsalı müəssisələrinin təşkil edilməsi layihəsi üzrə aparılmış daxili bazar araşdırmasının əsas hədəfləri aşağıdakı amillərdən ibarətdir:



- Nehrə yağı istehsalı və ticarəti bazarının mövcud durumunun öyrənilməsi və təhlili;
- Bazar istehlakçılarının fikirlərinin öyrənilməsi;
- Beynəlxalq təcrübənin təhlili və sərmayə perspektivlərinin araşdırılması;
- Yeni istehsal və emal müəssisələrinin təşkili perspektivlərinin təhlili.

# Anlayışlar- NEHRƏ



**Nehrə** - qatıqdan çalxalamaq yolu ilə yağ (çıxarmaq) hasil etmək üçün işlədilən qab.

Nehrənin Dəri, ağac və gil növləri olmuşdur. Ağac nehrələr, əsasən, Gəncə–Qazax zonasında, gil nehrələr isə subtropik zonada yayılmışdır. Azərbaycan məişətində XX əsrin ortalarına qədər çox geniş istifadə olunan nehrəni iki üsulla hazırlayırlar. Taxtadan hazırlamaq üçün palıd ağacından 1,5 və ya 2 metr uzunluğunda tir kəsir. Tirin içərisini nehrəgir vasitəsi ilə oymaqla düzəldirlər.
Digər üsul aran rayonlarında, əsasən meşə zəif olan yerlərdə gildən küpəyə oxşar şəkildə hazırlayırlar.

# Anlayışlar- NEHRƏ YAĞI NƏDİR? KLASSİK ANLAYIŞ



Nehrə yağının hazırlanması zamanı qabaqcadan tədbir görülürdü. Əvvəl bunun üçün 1-2 qazanda bir neçə gün qalmış qatığı saxlayar, sonra həmin qatığı çalxalayıb nehrənin içərisinə tökər və çalxalıyardılar. Elə vaxtlar olardı ki, nehrənin bir tərəfinə bir uşaq, digər tərəfinə başqa uşaq otuzdurular və çalxalanardı. Bir müddət çalxalanandan sonra həmin çalxalanan qatıq yağa çevrilərdi. Yağını yığardılar və al hissəsi isəşor olardı. Şoru da əldə edərdilər. Demək nehrə çalxalamaqdan iki nemət əldə edilərdi. Yağ və şor.

# Anlayışlar- NEHRƏ YAĞI NƏDİR-MÜASİR ANLAYIŞ




Bu gün nehrə yağı anlayışı tam fərqlidir. «Keyfiyyətli» nehrə yağı camış, ondan bir qədər aşağı səviyyəli nehrə yağı inək südündən hazırlanır. Bir kiloqram nehrənin hazırlanması üçün ən azından 18-20 litr çamış südü və ya 25-27 litr inək südü istifadə olunur.

Bu günkü «nehrə» yağı elektrik mühərrikli yağ aparatlarında hazırlanır və «nehrə» istehsal olan qurğu deyil, «keyfiyyətli ev üsulu ilə hazırlanmış təmiz yağ» anlamını daşayır.

# 2.0. Araşdırmanın Metodologiyası

Hazırkı hesabatla nəticələnən araşdırma, müxtəlif metodologiyaların tətbiqi vasitəsilə icra olunmuşdur.

Sözügedən metodologiyaların siyahisi aşağıdakı kimidir:

- statistik hesabatların toplanılması və təhlili;
- yağ istehsalı sənayesi və məhsulları bazarına aid məqalələrin və məlumatların toplanılması;
- qiymət və çeşid məlumatlarının bilavasitə satış nöqtələrindən toplanılması;
- istehlakçılar ilə sorğuların keçirilməsi;
- beynəlxalq təcrübənin öyrənilməsi;
- əldə olunmuş ilkin məlumatların sistemləşdirilməsi və təhlili.

**Qeydlər:**

Hesabat cari və potensial əməliyyatlar üzrə rəy, Sifarişçi və Potensial İnvestor gələcək uğuru və ya səmərəliliyi üzrə rəy, eləcə də investisiya məsləhətləri olaraq qəbul edilməməlidir.

Bu Hesabat yalnız müqaviləyə şərtləri və tələblərinə uyğun olaraq istifadə edilə bilər.



# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi



Nehrə yağının geniş istehsal potensialını qiymətləndirərkən, ilk öncə emal üçün yararlı xammalın, südün, keyfiyyəti, kəmiyyəti və, ən önəmli, emalının nehrə yağı istehsalının istifadəsi üçün rentabelliyin amilləri dəyərləndirilməlidir.

Bu səbəbdən, araşdırma zamanı tərəfimizdən statistik hesabların toplanılması və təhlili keçirilmişdir, məlumatlar və texnoloji faktorlar qiymətləndirilmiş və nəticələr əldə edilmişdir.

# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi



İlk öncə, nehrə yağı istehsalı üçün əsas məhdudiyyət ondan ibarətdir ki, yağın istehsalında süni qatqılı süd məmulatları və süd tozundan istifadə oluna bilməz.

Bu səbəbdən, süd tozu və qatqılar, ö cümlədən sterilizə olunmuş südlər nehrə yağının istehsalı üçün tamamilə yararsızdır.

Nehrə yağı yalnız təbii süd istifadə olmaqla istehsal olunur.

Növbəti səhifələrdə Azərbaycanın illər ərzində müşahidə olunan süd balansı təqdim olunmuşdur.

# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi



# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi

**Qrafik 2. Süd və süd məhsullarının istifadələri (İllər üzrə, ton)**




| | Mal-qara və quş yemi üçün | Ərzaq məhsulu kimi istifadə edilmişdir | İxrac | İtkilər | İlin sonuna qalıq | İstifadələrin cəmi |
|---|---|---|---|---|---|---|
| 2015 | 46 206 | 2 345 715 | 6 262 | 35 094 | 22 115 | 2 455 392 |
| 2016 | 23 668 | 2 276 948 | 5 753 | 9 233 | 4 914 | 2 320 516 |
| 2017 | 24 657 | 2 317 418 | 15 983 | 9 349 | 5 668 | 2 373 075 |
| 2018 | 25 483 | 2 358 911 | 12 647 | 10 279 | 9 638 | 2 416 958 |
| 2019 | 28 019 | 2 439 133 | 49 595 | 13 138 | 21 828 | 2 551 713 |

# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi




*Qrafik 1 üzrə nəticələr*

Ümumi ehtiyyatların artımı və ilin əvvəlində qalıqın ildən ilə azalması bazarın qeyri stabilliyi və istehlakın artımına işarədir

İstehsalın artma templəri yüksəlir, lakin burada təkçə təbii süd və ondan emal olunan süd məhsulları deyil, bütün süd məhsulları daxildir.

İdxal stabildir və illik 350-390 ton ətrafındadır. Beləliklə, son 5 il ərzində yerli istehsalçılar idxal olunan süd məhsullarının bazar payını azaltmaqa nail ola bilməyib.

İstehsalın artımı və, eyni zamanda, idxalın eyni səviyyədə qorunub saxlanılması istehlakda artım və ya müəyyən növ məhsullar seqmentində (yeni məhsullar da ola bilər) artım ilə izah oluna bilər.




*Qrafik 2 üzrə nəticələr*

2015-ci il nisbətində süd məhsulları itkiləri növbəti illər ərzində təqribən 3-4 dəfə azalmışdır.

2019-cu ildə, 2015-ci il nisbətində süd məhsullarının ixracı təxminən 8 dəfə (800%) artım nümüyış etdirmişdir və 49595 ton olmuşdur. Bu, əsasən Gürcüstan və Türkmənistana ixrac edilmiş marqarin hesabına formalaşmışdır.

Süd məhsul istifadələrin cəmi yalnız 2019-cü ildə 2015-ci ilin göstəricilərini üstələmişdir. 2016-2018 illər ərzində cəmi istifadələr 2015-ci ilin göstəricilərindən az olmuşdur.

# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünün qiymətləndirilməsi



# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi

**QRAFIK 4. SƏNAYE EMALINDAN KEÇMIŞ ƏSAS NÖV ƏRZAQ MƏHSULLARI ILƏ ÖZÜNÜTƏMINETMƏ SƏVIYYƏSI, FAIZ**



# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi

*Qrafik 3 üzrə nəticələr*

İstehsal olunan südün əsas hissəsi ilk öncə süd və qaymaq istehsalına, daha sonra kərə yağı və üçüncü olaraq pendir istehsalına istifadə olunur;

2015-2019-cu illər ərzində süd emalı pik hədlərinə çatmışdır.

2015-2019-cu illərdə emalda dördünçü yerdə qərarlaşan qatıq istehsalının həcmində hər hansı bir mühüm deyişiklik baş verməyib.

2015-ci ilin nisbətində 2019-cu ilin istehsal artımı:

- Süd və qaymaq emalı- 108 000 ton
- Kərə yağı istehsalı- 3 000 ton
- Pendir istehsalı- 23 500 ton




*Qrafik 4 üzrə nəticələr*

Özünütəminetmə indeksinə görə, Qrafik 4-də verilmiş məlumatlara əsasən, Azərbaycan ən çox süd və qaymaq məhsulları üzrə özünü təmin edir. Bu məhsullar üzrə özünütəminetmə 93-99% civarındadır.

Kərə yağı üzrə özünütəminetmə imkanı bir qədər azdır və 2015-2019-cu illər ərzində 69.2-75.6% arasında qərarlaşıb.

# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi

Qrafik 5. Minimum istehlak səbəti üzrə əsas növ ərzaq məhsullarının illik istehlak normaları, kq




Qrafik 6. Sənaye emalından keçmiş əsas növ süd ərzaq məhsullarının adambaşına istehlakı, illik kiloqramla
2019
2018
2017
2016
2015
Qatıq, qaymaq, yoqurt və s. məhsullar
14,1
13,4
15,2
14,6
14,7
Bütün növ pendirlər
5,8
5,8
6,2
6,3
6,5
Kərə yağı
3,3
3,3
3,4
3,4
4,4
Yağlılığı 6 faizdən çox olan süd və qaymaq
0,7
0,6
0,6
0,6
0,5
Yağlılığı 1-6 faiz olan süd və qaymaq
96,9
94,5
94,8
90,9
89,9
Marqarin
3,6
3,3
3,1
2,9
1,4
Bitki yağları
16,1
15,1
16,0
15,9
12,6
0,0
20,0
40,0
60,0
80,0
100,0
120,0

# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi

*Qrafik 5 üzrə nəticələr*

Nazirlər Kabineti tərəfindən təyin olunmuş normalara görə, il ərzində adambaşına düşən kərə yağının həcmi 6.7 kg, ümumilikdə bütün süd və süd məhsullarının istehlakı 232.4 litr süd ekvivalentində olmalıdır.

*Qrafik 6 üzrə nəticələr*

Praktiki olaraq müəyyən olunmuş kərə yağı istehlakı təqribən 50% kərə yağı və 50% marqarin istehlakından ibarətdir.

Ən çox istifadə olunan süd məhsulu yağlılığı 1-6 faiz arası olan süd və qaymaqdır.

Daha yüksək faizli südün illik istehlakı adambaşına 0,5-0,7 kg səviyyəsində qərarlaşıb və beləliklə satış rəflərində təbii südün çox az miqdarda olmağına işarədir.



# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi

2020-ci il üçün
Süd ərzaq məhsullarının qiymət indeksləri

| Məhsulun adı | Ortalama aylıq qiymət artımı % |
|---|---|
| Pasterizə olunmamış üzlü süd | 0,5 |
| Sterilizə olunmuş üzlü süd | 1,1 |
| Uşaq qidası üçün quru süd qarışığı | 0,6 |
| Qatılaşdırılmış şəkərli süd | 1,1 |
| Yoqurt | 0,7 |
| Xama | 0,8 |
| Qatıq | 0,7 |
| Ayran | 1,0 |
| Dovğa | 0,1 |
| Tərkibində qursaq mayası olan bərk və yumşaq pendir | 0,5 |
| Əridilmiş pendir | 0,8 |
| Brınza | 0,7 |
| Şor | 0,0 |
| Kəsmik | 0,4 |
| Kərə yağı | 0,3 |
| Süfrə marqarini | 0,9 |

Süd məhsullarının qiymətinin dinamikası ötən il ərzində ən yüksək qiymət artımını Sterilize Olunmuş Süd, Qatılaşdırılmış Şəkər Südü, Ayran və ən əsası Süfrə Marqarini üçün göstərir.
Qrafik 6-da verilmiş kərə istehlakı 2019-cu ildə ən az istehlak həcmini göstərilməsini nəzərə alsaq, marqarinin bir çox istehlakçılar üçün kərə yağını əvəz etməsini nəticəsinə gəlirik.


QRAFIK 7. SÜD, KƏRƏ YAĞI, DİGƏR YAĞLAR, PASTALAR VƏ MARQARİNİN İDXAL DİNAMİKASI (TON, MİN ABŞ DOLLARI)
Süd və qaymaq, ton
Kərə yağı və digər süd yağları və pastaları, ton
Marqarin, qida üçün yararlı digər qarışıqlar, ton
8 835,2
13 793,9
14 069,1
5 761,7
22 392,6
13 227,4
5 463,1
14 365,1
15 271,7
8 034,1
48 383,9
18 451,7
8 872,9
13 811,1
20 101,8
14 344,2
66 900,3
25 694,0
9 511,4
12 115,3
22 856,3
12 652,5
69 690,0
29 410,9
9 022,7
14 032,3
24 162,5
14 374,4
71 576,6
29 412,4
MIQDARI
MƏBLƏĞİ, MIN ABŞ DOLLARI
2015
2016
2017
2018
2019



Qrafik 8. 2020-ci il ərzində süd və qaymaq idxalı
(ölkələr üzrə, ton, min ABŞ dolları)
Süd və qaymaq, ton
Digər ölkələr
172,1
72,7
Fransa
266,7
84,5
Polşa
386,3
88,8
Danimarka
380,0
229,5
İran İslam Respublikası
335,3
461,6
Rusiya Federasiyası
1 088,7
806,7
Türkiyə
1 620,8
1 052,1
Ukrayna
4 560,4
2 797,3
Belarus
5 564,1
3 429,5
Cəmi
14 374,4
9 022,7
0,0
2 000,0
4 000,0
6 000,0
8 000,0
10 000,0
12 000,0
14 000,0
16 000,0
Məbləği, min ABŞ dolları
Miqdarı


Qrafik 9. 2020-ci il ərzində kərə yağı, digər süd yağları və pastaların idxalı
(ton, min ABŞ dolları)
Digər ölkələr
639,5
127,0
Rusiya Federasiyası
156,7
55,2
Belçika
1 034,3
193,8
Almaniya
1 301,6
221,5
Fransa
2 349,1
414,7
Finlandiya
3 998,7
695,4
Polşa
4 018,6
915,3
Belarus
7 760,3
1 453,2
Ukrayna
13 230,1
2 936,7
Yeni Zelandiya
37 087,7
7 019,5
Cəmi
71 576,6
14 032,3
0,0
10 000,0
20 000,0
30 000,0
40 000,0
50 000,0
60 000,0
70 000,0
80 000,0
Məbləği, min ABŞ dolları
Miqdarı

# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi




*Qrafik 7, 8, 9 üzrə nəticələr*

Kərə yağı idxalı ildən ilə artaraq 2015-ci il nisbətində 2019-cu ildə 6.5 dəfə artmışdır. Eyni dövr üçün margarin idxalı 2.5 dəfəyədək artım nümayiş etdirmişdir.

Süd və qaymaq idxalı üzrə lider ölkələr Belarus, Ukrayna və Türkiyədir.

Kərə yağı idxalında lider ölkə Yeni Zelandiya-dır. Ukrayna və Belarus müvafiq olaraq ikinci və üçüncü yerlərdə qərarlaşıblar.

# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi



***YEKUN NƏTİCƏLƏR***

*Süd təchizatı baxımından*

- *Nehrə yağının keyfiyyəti üçün ən əsas amil-xammalın, yani südün keyfiyyətidir.*
- *Nehrə yağı istehsalçıları ilk öncə təbii südün haradan və hansı qiymətə təchiz edəcə*klərini təyin etməlidirlər.
- Azərbaycanda təbii süd istehsalı məhduddur və bir çox digər məhsulların emalına sərf olunur.
- Belə olan halda nehrə istehsalçılarına öz fermalarının təşkili və yaxud etibarlı fermer təsərrüfatları ilə uzunmüddətli müqavilələrin imzalanması tövsiyə olunur.

# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi



*YEKUN NƏTİCƏLƏR*

*İstehlak baxımından*

- Ənənəvi resept və standartlara uyğun hazırlanmış nehrə yağının bir kilosunun istehsalı üçün 25-27 litr süd tələb olunur. Beləliklə, lazımı dərəcədə səlis istehsal olunmuş nehrə yağının bir kilosunun qiyməti 20-25 manat cıvarında olmalıdır;

- Beləliklə, nehrə yağı premium səviyyəli qida məhsulu hesab olunur və onun istehlak bazarı kifayət qədər məhduddur. Bunu nəzərə alaraq, sənaye və kütləvi bazar məhsulu deyil, eksklüziv, organik, premium məhsul kimi satışa çıxarılması daha məqsədəuyğun hesab oluna bilər

# 3.0. Nehrə yağının sənaye istehsalı mümkünlüyünun qiymətləndirilməsi



## ***YEKUN NƏTİCƏLƏR***

*Rəqabətlilik baxımından*

- Bir çoxları nehrə yağını saxtalaşdırıb 5-6-10 manat qiymətinə bazara təklif edirlər. Şəhər sakinləri qiymətə aldanıb «nehrə yağını» məhz bu satıçılardan alırlar.

- Bundan əlavə, belə keyfiyyətsiz məhsulun ortaya çıxarılması ümumilikdə nehrə yağlarının saxta olmamasına inamı azaldır.

- Beləliklə,  icdansız rəqabətlik daha bir amildir ki, nehrə ya;

- Beləliklə, nehrə yağı premium səviyyəli qida məhsulu hesab olunur və onun istehlak bazarı kifayət qədər məhduddur. Bunu nəzərə alaraq, sənaye və kütləvi bazar məhsulu deyil, eksklüziv, organik, premium məhsul kimi satışa çıxarılması daha məqsədəuyğun hesab oluna bilər

# 4.0. Bazarın mövcud durumu

Bazar araşdırmasının bu hissəsində ticarət obyektlərinin monitoringi, qiymət və çeşid qeydiyyatı, istehsalçıların nehrə məhsullarının mövcudluğu və vətəndaşların (istehlakçıların) nehrə yağına dair fikirləri öyrənilmişdir.

Monitorinq eyni zamanda bir çox internet ticarət səhifələri üzərindən aparılmış və nehrə yağının keyfiyyətinin və saxta məhsulun bazarda geniş təqdim olunması barədə məqalələri əhatə etmişdir.



# 4.1. Bazar çeşid və qiymət təklifləri

Supermarketlərdə, bazarlarda, bəzi ət dükanlarında, kənd təsərrüfatı məhsulları üzrə ixtisaslaşan mağazalarda, internet vebsaytlar və sosial şəbəkələrdə nehrə yağı satış təklifləri saysız-hesabsızdır.

Əlavə 1-də təqdim olunmuş çeşidlər barədə məlumatlar açıq bazarda toplanılmışdır və burada təklif olunan qiymətlər böyük əminliklə saxta məhsulun təklif olunması qənaətinə gəlmək üçün əsas verir.

Belə ki, bir kilosu üçün 7-15 manat arasında qiymət təklifi olan məhsulların marqarin qatılmadan, rəngləyicidən və süd tozundan istifadə edilmədən istehsalı qeyri-mümkündür.

Öncə bildirildiyi kimi, belə məhsulların bazarda təklif olunması ümumilikdə məhsula qarşı istehlakçı inamını azaldır, vicdanlı istehsalçıları qiymət baxımından əlverişsiz vəziyyətə salır, və hətta sanitariya-gigiyena, qida təhlükəsizliyi baxımından bır sıra suallar yaradır.



# 4.1. Bazar çeşid və qiymət təklifləri




Rəqəmlərə əsasən, “Səba” yağlarının satış həcmi 2019-cu ilə nisbətən 2020-ci ildə 43,3% daha artıq olub. 2017-ci illə müqayisədə isə bu göstərici daha da çoxdur – 87,1%.

2020-ci il ərzində "Beyləqan Südçülük Fermer Təsərrüfatı" MMC, "Avanqard" MMC, "Muğan Aqro Fermer Təsərrüfatı" MMC, "Qara İnək Fermer Təsərrüfatı" MMC, "S.A.N.İ Kəndli Fermer Təsərrüfatı" MMC, "Türk Qida Sənaye" MMC, "Türyançay FT" MMC və digər xammal tədarükçüləri ilə imzalanmış müqavilələrə əsasən müəssisənin süd alışı 2019-ci illə müqayisədə cari ilin sentyabrınadək təxminən 33,6% artaraq 6276 ton təşkil edib.

# 4.1. Bazar çeşid və qiymət təklifləri



Xırman MMC-nin tərkib hissəsi olan “QayMaq” Premium qida Azərbaycan bazarında yalnız keyfiyyətli, 100% təbii və yerli məhsulları təqdim edən eko -brenddir. Buna görə də “QayMaq” məhsulları, təbii xammaldan, süd emalı zavodunun xüsusi istehsal sahəsində, gündəlik olaraq istehsal olunur. İstehsal zamanı konservantlardan, əvəzləyicilərdən, süni əlavələrdən istifadə olunmur.

Supermarketlərdə geniş yayılmış QayMaq Nehrə Yağı aşağıdakı xarakteristikaları əks etdirir. Tərkibi: pasterizə edilmiş təbii inək südündən qaymaq.

Saxlama müddəti: t 0 - 5 °C – də 30 gün, t -10°C – 3 ay

100 qr. üçün səciyyəvi tərkibi: yağlar – 85 qr, zülallar – 0,5 qr, karbohidratlar – 0,7 qr. Enerji dəyəri: 770 kkal.

Xalis çəkisi: 500±15 qr.

Qiyməti- 11.50 AZN

# 4.1. Bazar çeşid və qiymət təklifləri

https://safqida.az/mehsul/nehre-yagi/

Saf Qida 2012-ci ildə yaradılmış yerli şirkətdir ki sağlam qida, organik, təbii kənd məhsulları və oxşar məmulatları istehlakçılara təqdim edir. Şirkətin bir mağazası və vebsaytı var kı onlar əsas satış kanallarıdır.

Şirkət tərəfindən təklif olunan nehrə yağı Gəncə şəhərində istehsal olunur və kiloqramı 18 manatdan satışa çıxarılır.

Saf Qida şirkəti özü hər hansı bir məhsul istehsalçısı deyil və yalnız təchizatçılarla işləyərək onların məhsulunun təbiiliyi və keyfiyyətinə nəzarət edir



# 4.1. Bazar çeşid və qiymət təklifləri

https://bizimkendimiz.az

Bizim Kəndimin onlayn satış mağazasıdır. Burada sifarişləri internet vasitəsilə və ya qaynar xəttə müraciət edərək yerləşdirmək olar.

Təklif olunan nehrə yağ çeşidləri aşağıdakılardır

Bərdə Nehrə Yağı kq (Qarabağ Dadı)
12.90 AZN

Nehrə yağı 1 kq ivanovka
13.90 AZN



# 4.1. Bazar çeşid və qiymət təklifləri- onlayn satış nöqtələri

Nehrə yağı satışı təklif edən elanlar onlarla müxtəlif elan saytlarında yerləşdirilib. Bu saytların bir qismi hesabatda əks etdirilib. Saytlarda yerləşdirilən fərdi elanlar hər hansı bir keyfiyyət və ya saxtalaşdırılmamış məhsul zəmanəti vermir və bu səbəbdən nehrə yağının elan əsasında alınması bir sıra risklərlə müşahidə olunur.



https://ucuztap.az › nehrə+yağı
https://ucuztap.az › nehre+yagı
http://heyvanbazari.az
https://tezbazar.az
https://lalafo.az
https://ru.tap.az
https://birja.com
https://adazu.top
https://ru.aratap.az

# 4.1. Bazar çeşid və qiymət təklifləri-SAXTA NEHRƏ YAĞI

Aşağıda təqdim olunmuş vebsayt linkləri saxta nehrə yağı satışı problemini əks etdirən məqalələrin kiçik bir qismidir. Saxta arı balı, saxta balıq kürəsi və sair məhsullar ilə yanaşı saxtalaşdırılmış nehrə yağının satışı mühüm bir problemdir.

Bazarlarda saxta nehrə yağı satılır? - ARAŞDIRMA - VİDEO
https://news.milli.az › society
Перевести эту страницу
Paytaxt bazarında bəzi **satıcılar** iddia edir ki, qiymətin ucuz olmasına baxmayaraq, müştərilərinə təmiz **nehrə yağı** satırlar. Satıcılardan qiymətlərin belə ucuz ...

DİQQƏT! Bakıda saxta nehrə yağı satılır - VİDEO - Bakupost.az
https://www.bakupost.az › diq...
Перевести эту страницу
Məsələ burasındadır ki, çətinliklə əldə edilən **nehrə yağı** paytaxda daha ucuz. ... Paytaxt bazarında bəzi **satıcılar** iddia edir ki, qiymətin ucuz olmasına ...

Bazarlarda saxta nehrə yağı satılır? - Araşdırma/ VİDEO - son ...
http://sonxeber.az › bazarlarda...
Перевести эту страницу
Paytaxt bazarında bəzi **satıcılar** iddia edir ki, qiymətin ucuz olmasına baxmayaraq, müştərilərinə təmiz **nehrə yağı** satırlar. Satıcılardan qiymətlərin belə ucuz ...

DİQQƏT! Bakıda saxta nehrə yağı satılır - VİDEO - Sitat.news
https://sitat.news › diqqet-baki...
Перевести эту страницу
9 янв. 2018 г. — Məsələn, Bərdə bazarında çiyə **yağı** 10, **nehrə yağı** isə 11 manata təklif ... Paytaxt bazarında bəzi **satıcılar** iddia edir ki, qiymətin ucuz olmasına ...

Bazarlarda saxta nehrə yağı satılır? - DİQQƏTLİ OLUN ...
http://www.unikal.org › news
Перевести эту страницу
Paytaxt bazarında bəzi **satıcılar** iddia edir ki, qiymətin ucuz olmasına baxmayaraq, müştərilərinə təmiz **nehrə yağı** satırlar. Satıcılardan qiymətlərin belə ucuz ...

Faiq QİSMƏTOĞLU: SAXTA NEHRƏ YAĞI - Adalet.az
https://www.adalet.az › mobil
Перевести эту страницу
Heç kiloqramı 8 manata da **nehrə yağı** olarmı? O gün Bərdə bazarından bu yağdan aldım, bir kilosuna 13 manat verdim. **Satıcı** söz altında qalmadı: - A qardaş ...

2 manata "kərə yağı" satılır: tərkibi nədir? - Araşdırma - Axar.az
https://axar.az › news › saghliq
Перевести эту страницу
Əgər **satıcı yağı** kəsəndə qırılmırsa, düz kəsilirsə, demək, təmiz kərə **yağı** deyil. ... Yarmarkalardan gətirilən kərə və **nehrə** yağları arasında da saxta və tərkibi ..

# 4.2. İstehlakçıların münasibəti

Araşdırma əsnasında istehlakçıların münasibətinə dair rəylər və fikirlər öyrənilmişdir. 30 nəfərin iştirakı ilə keçirilən sorğu zamanı aşağıdakı məqamlar müəyyən olunmuşdur:

1. nehrə yağının prinsipcə organik və təbii məhsul olması müştərilər tərəfindən bir fakt kimi qəbul olunur
2. yağın saxtalaşdırılması problemi yalnız inanc olan təchizatçılardan alınmasının zərurətini yaradır.
3. supermarketlərdə satılan yağlar arasında ən çox bəyənilən məhsul Qaymaq brendinin nəhrə yağlarıdır.
4. əldə satılan nehrə yağları istehlakçıların müəyyən qədər sanitariya-gigiyena, təhlükəsizlik və təbii olması barədə şübhələrini oyadır.



# 5.0. Nehrə yağı istehsalı təşəbbüsünün SWOT təhlili

## STRENGTHS (GÜCLÜ TƏRƏFLƏR)

- milli ənənələr və mədəni irsin yaşatması
- təbii və orqanik məhsulun yerli istehlakçıya təqdim olunması
- kiçik müəssisələrin inkişaf etidirilməsi
- süd istehsalına dəstəyin artırılması
- yağ idxalın qismən əvəzləşdirilməsi



# 5.0. Nehrə yağı istehsalı təşəbbüsünün SWOT təhlili

## WEAKNESSES (ZƏİF TƏRƏFLƏR)

- süd məhsulları emalı tarazlılığın pozulması;
- məhdud ixrac imkanları;
- standartlaşdırmanın olmaması;
- vicdansız rəqabətlilik amilinin mövcudluğu
- yüksək maya dəyəri və satış qiyməti



# 5.0. Nehrə yağı istehsalı təşəbbüsünün SWOT təhlili

## OPPORTUNİTİES (İMKANLAR)

- tədricən yeni məhsul istehsalı (kakao, vanil və sair əlavələrlə yağların emalı);
- Azərbaycan məhsullarının çeşidinin genişləndirilməsi və ixraciyyat imkanlarının artırılması;
- Beynəlxalq səviyyədə Azərbaycan təbii məhsullarının tanınması



# 5.0. Nehrə yağı istehsalı təşəbbüsünün SWOT təhlili

THREATS (TƏHLÜKƏLƏR)

- milli irs nümunəsinin itirilməsi;
- keyfiyyətli məhsulun təqdim olunmaması və istehlakçı inamının itirilməsi
- yüksək rəqabətlilik



# 6.0. Biznes Modellər- Beynəlxalq Təcrübə




Araşdırma zamanı Sage Solutions MMC tərəfindən İsveçrə, İngiltərə, Fransa və Almaniya ənənəvi və orqanik yağ istehsalçıların təcrübəsi öyrənilmişdir və uğurlu praktika nümunəsi olaraq hazırkı hesabatda öz əksini tapmışdır

# 6.0. Biznes Modellər- Beynəlxalq Təcrübə

## Xammalın keyfiyyətinə nəzarət

- Bir qayda olaraq təchiz olunan südün xüsusiyyət xarakteristikaları fermerlərə təqdim olunur və onlar tərəfindən yağlılıq və digər parametrlərin əldə olunması üçün heyvanlara xüsusi bəslənmə və qida proqramı hazırlanır.

- Təchiz olunan südün hər bir çatdırılması zamanı istehsalçı parametrlərə əməl olunmasını xüsusi cihaz vasitəsi ilə yoxlayaraq qəbul və ya imtina etmək qərarını verir.

- Beləliklə, xammalın eyni standart üzrə təchizatı yekun məhsulun stabil keyfiyyətini və xüsusiyyətlərinin təminatını sığortalayır.



Azərbaycanda istehsal olunan məhsulların bir çoxunda stabil keyfiyyətin təminatı daimi problemdir, budur belə yanaşma bu problemin çözümü kimi qəbul edilər bilər

# 6.0. Biznes Modellər- Beynəlxalq Təcrübə

## Emal prosesinin reqlamentləşdirilməsi

- Texniki şərtlər, emalın hər hissəsinə ayrılan vaxt, əlavələrin miqdarı, işçilərin sanitar-gigiyenik tələblərə riayət etməsi keyfiyyətin və qida təhlükəsizliyin zəruri bir hissəsidir.

- İstehsal tamamilə reqlamentlər üzərindən qurulmalıdır və reqlament tələblərinə əməl olunmasına nəzarət mexanizmləri işlənib hazırlanmalıdır



# 6.0. Biznes Modellər- Beynəlxalq Təcrübə

## Məhsulun brendləşdirilməsi və qablaşdırılması

- ✓Orqanik yağ məhsulu premium səviyyəli məhsuldur və daha yüksək qiymətlə təklif olunur.
- ✓Odur, onun brendləşdirilməsi və qablaşdırılması digər geniş istehlakçı yağlardan fərqli olunmalıdır.
- ✓Kağız (perqament), taxta, saxsı qabların geniş istifadəsi istehlakçı tərəfindən «təbiilik» təzahürü kimi qarşılanır və əlavə dəyər verir.



# 6.0. Biznes Modellər- Beynəlxalq Təcrübə

Məhsulun satışı

Məhsullar supermarketlərdə satışa çıxarılmır.

Onların əsas satış nöqtələri fermer və organik məhsul mağazaları, fermer yarmarkaları, fərdi sifariş sistemləridir ki, məhsulun eksklüzivliyini, bio-məhsul olduğunu daha çox təsdiq edir.

Daha bir vacib seqment təbii məhsullar ilə çalışan restoran və kafelərdir.



# 7.0. Dövlət dəstəyi proqramları

Bir çox sahələrdə olduğu kimi, kənd təsərrüfatı və qida məhsullarının emalı sənayesinə də dövlət tərəfindən dəstək proqramları təklif olunur. Bu proqramların bəziləri haqqında məlumatlar hesabatda öz əksini tapmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 yanvar tarixl 17 nömrəli qərarına müvafiq olaraq ölkəyə idxal olunan bir sıra kənd təsərrüfatı və emalı texnikası, o cümlədən qida sənayesində istifadə edilən suyun süzülməsi və ya təmizlənməsi üçün qurğu və avadanlıqlar, butulkaların və ya digər qabların yuyulması və qurudulması üçün avadanlıqlar, ərzaq məhsullarının istehsalında istifadə olunan avadanlıqların hissələri, pnevmatik qaldırıcılar və konveyerlər, meyvə və ya digər kənd təsərrüfatı məhsullarının təmizlənməsi, sortlaşdırılması və ya kalibrlənməsi üçün maşınlar və s. ölkəyə idxal edilərkən idxal rusmuna və əlavə dəyər vergisinə cəlb edilmirlər.



# 7.0. Dövlət dəstəyi proqramları

## Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)

<u>Startap şəhadətnaməsinin verilməsi-</u>

şəhadətnaməni alan mikro və kiçik sahibkarlıq subyektləri Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq şəhadətnaməni aldıqları tarixdən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edilir.



## Sahibkarlığın İnkişaf Fondu

<u>Güzəştli Kreditləşdirmə-</u>

10 mln. AZN məbləğə kimi, 10 il müddətinə kimi, illik 5%-dək faiz dərəcəsi olan güzəştli kreditlərini əldə etmək imkanı.

# 7.0. Dövlət dəstəyi proqramları

## Aqrar Kredit və İnkişaf Agentliyi

Qüzəştli kreditləşdirmə

1 000 000 manatədək kənd təsərrüfatı istehsal vasitələrinin alınması üçün kreditlər. 5 ilədək müddətinə verilir.



## Azpromo

Satış və marketinq

2003-cü ildə İqtisadiyyat Nazirliyi tərəfindən yaradılan Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) qeyri-neft sektorlarına xarici investisiyaların cəlbi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması məqsədilə fəaliyyət göstərir.

170 – dən çox ölkə ilə xarici ticarət əlaqələri qurmuş Azpromo, həmçinin Made İn Azerbaijan brendinin operatorudur.

# ƏLAVƏ 1. Nehrə yağları bazar təklifləri

| YAŞIL BAZAR | | |
|---|---|---|
| Rayon | Qiymət | Çəki |
| Tər-tər (öz evinden gətirildiyi bildirilib) | 15 azn | 1 kg |
| Daşkəsən | 16 azn | 1 kg |
| Daşkəsən (Xaş bulaq kəndi) | 18 azn | 1 kg |
| Bərdə | 13 azn | 1 kg |
| Cəlilabad | 15 azn | 1 kg |
| OAZİZ YANI | | |
| Bərdə | 17 azn | 1 kg |
| Göy-göl | 20 azn | 1 kg |
| KEŞLƏ BAZARI | | |
| Bərdə (çiyədən hazırlanmış) | 10 azn | 1 kg |
| Daşkəsən (qaymaq yağı) | 10 azn | 1 kg |
| Bərdə təmiz nehrə yağı | 15 azn | 1 kg |
| Səbirabad | 14 azn | 1 kg |
| Gəncə | 10 azn | 1 kg |
| Keşlə bazarın özündə hazırlanan yağ | 15 azn | 1 kg |

# ƏLAVƏ 1. Nehrə yağları bazar təklifləri

| | | |
|---|---|---|
| 7-ci MİKRORAYON ƏT MAĞAZASI | | |
| Bərdə | 12 azn | 1 kg |
| 8-ci KM. BAZARI | | |
| Bərdə | 7 azn | 1 kg |
| Beylaqan | 10 azn | 1 kg |
| Bərdə | 7 azn | 1 kg |
| Bərdə | 10 azn | 1 kg |
| Göy-göl | 10 azn | 1 kg |
| Daşkəsən | 12 azn | 1 kg |
| İmişli | 8 azn | 1 kg |
| İsmayıllı (qaymaqdan) | 7 azn | 1 kg |
| Şəki | 15 azn | 1 kg |
| Beylaqan | 8 azn | 1 kg |